Ramilə QURBANLI

# PAS ATMIŞ AÇARLAR



Anamgildə dolabda bir topa paslı açar keçdi əlimə. Bir-birinə qəhvəyi iplə bağlanmışdı hamısı, böyüklü-kiçikli... Anamla atam bütün qapıları bağlayıb, açarı da götürüb çıxıblar evdən – həyət-dən. "O gün onlara evlərinizi həmişəlik tərk edirsiniz" – deməmişdilər. Elə desəydilər, tərk etdikləri evin açarı kimə lazım idi?.. Demişdilər ki, çəkilin Arazın kənarına, ağır döyüş olacaq, dinc əhali təhlükəsiz yerdə olsun. Açardan başqa əllərində bir də dəhrə olub. Anam deyir, Arazın kənarı meşəlikdir, dedim, gecə orda qalmalı olarıq, qurda-quşa rast gələrik, soyuq olar, ağac doğrayıb tonqal qalayarıq:

"Evdə iki dəhrə vardı, atana dedim ki, ikisini də götür, sonradan gördüm ki, birini götürüb, o biri qalıb".

Üç gecə qalmalı olublar Araz kənarında, soyuqda, qaranlıqda. Dəhrə yaxşı işə yarayıb. Orda olan camaatın hamısı atamın əlindəki dəhrənin hesabına ağac qırıb ocaq qalaya biliblər. Anam o üç gecənin hər birində atama irad tutub ki, gərək o biri dəhrəni də götürəydin.

Elə bil yaddaşına o söz həkk olunub, bütün olanını qoyub çıxan adam hərdən dodaqaltı həmin dəhrəyə görə deyinir: "Dedim ki, ikisini də götür, bu kişi məni heç vaxt eşitmədi".

Bir dəfə soruşdum ki, ay ana, dəhrənin ikisini də götürsəydi, nə olacaqdı ki, neyniyirsən dəhrəni, birini dolabda bərk-bərk saxlayırsan, nəyə lazımdır ki?

"Niyə, dəhrədi də, hər işə yarayır, indi dəhrə tapılır?" – dedi.

İndi dəhrə tapılır? – Anam o havadadır, elə bilir, qayıdıb ipəkqurdu saxlayacaq, yarpaq qırmağa dəhrə tapmayacaq. İndi dəhrənin nə olduğunu az adam bilər.

Elə bu bir topa paslı açarın da nə olduğunu hər kəs bilməz. Bu açarların hər gün açıb-bağladığı qapılar vardı. Hər gün işləyərdilər, par-par yanardılar bu açarlar. Bir gün bağladıqları qapıları 21 ildir aça bilmir indi bu açarlar. Bəs açar bütün bağlı qapıları aça bilərdi? Bəs bütün bağlı qapıların açarı, bütün açarların açacaqları bir qapı vardı?

Niyə pas atıb bunlar?

Bu pas atmış açarlarmı günahkardır, yoxsa onları əlində tutub dolabın qarşısında hirsindən, emosiyasından, nə bilim daha nəyindən keçib əsən mən?

"Ay bala, diqqətli ol ha, qapını bağla, açarı qoy həmin yerə", "Qapını bağladınmı, açarı yerinə qoydunmu?"... Anamın bu sözləri qulaqlarımda səslənir.

Gedərdi məktəbə, mən ondan sonra gedərdim dərsə – ikinci növbə! Gedəndə belə tapşırardı, məktəbdə də məni qarşılayıb yenə soruşardı açar barədə.

Açarlara bir-bir baxıram, hər biri hansı qapınındır, dəqiq yadımdadır, dolabın da açarı, çamadanın da açarı onların arasındadır.

Bir dəfə qardaşımla oynayanda qaçıb qonaq otağına girmişdik, qapını da arxamızca çırpmışıq. Bir də duyuq düşdük ki, qapı bağlanıb, "anqliyski zamok" qapı çırpılanda bağlanır axı, açar isə çöldən qapının üstündədir. Atamla anam işdən gəlincəyə qədər pəncərə "reşotka"sından asılı bayıra baxıb ağlaya-ağlaya qaldıq.

Anam əlimdə açar dolabın qarşısında donub qaldığımı gördü. Aldı açarları əlimdən: "Aralarında bircə qonaq otağının açarı yoxdur, hardasa salıb itirmişəm, yəqin. O da bunların arasında idi, necə itib, bilmirəm" – dedi. Yenidən mənə qaytardı açarları.

Qardaşımın yoldaşı vəziyyəti yumşaltmaq üçün zarafatla: "Açarlarımızı niyə götürmüsən, yoxsa hamıdan əvvəl qaçıb evə sahib çıxmaq fikrin var?" – deyir.

Kaş elə imkanım olaydı, o evə sahib çıxmaq imkanım... Açarları pas atmış o evlərin bağlı qapılarını aça bilmək imkanım... Hamıdan əvvəl oralara qaçıb getmək imkanım...